

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 84 (23.246)

7 may 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da “Rusiya Dəmir Yolları” Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan tərəfinin Rusiya Dəmir Yolları ilə əməkdaşlıqdan məmnunluğunu bildirərək, Oleq Belozyorovun ölkəmizə səfərinin əlaqələrin perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını deyib. Prezident İlham Əliyev ümidvar olduğunu bildirib ki, Azərbaycanla Rusiyanın dəmir yolu sahəsindəki imkanları gələcəkdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı şərait yaradacaq. Rusiyadan Azərbaycan vasitəsilə tranzit yüklərin artdığını qeyd edən dövlətimizin başçısı bu sahədə yeni addımların atılacağına əminliyini ifadə edib.

Azərbaycan Dəmir Yolları ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini deyən “Rusiya Dəmir Yolları” Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov bu ilin birinci rübündə daşımaların həcminin 25 faiz artmasını bunun çox yaxşı göstəricisi kimi dəyərləndirib. Dəmir yolu sahəsində əlaqələrin inkişafına iki dövlət başçısının daim dəstək verməsinin böyük önəm daşıdığını qeyd edən qonaq tranzitin təşkili və yeni marşrutların müəyyən edilməsinin ölkələrimizin iqtisadi inkişafına öz töhfəsini verdiyini bildirib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Dövlət proqramı necə icra olunur?

## Muxtar respublikada iqtisadiyyatın daha da şaxələndirilməsinə geniş imkanlar yaradılıb

*Müasir Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının yeni mərhələsi ölkə regionları arasında yaşayış səviyyəsi fərqlərinin aradan qaldırılması, şəhərlə kəndin bir-birinə yaxınlaşması, əhalinin daha çox ucqarlarda yeni iş yerləri ilə təmin olunmasına imkan verən istehsal və xidmət sahələrinin yaradılması ilə xarakterizə edilir. Regional inkişaf prioritetlərinə uyğun olaraq həyata keçirilən iqtisadi strategiya, bu mənada, Naxçıvan Muxtar Respublikasında hərtərəfli şəkildə mənimsənilməklə, son nəticədə, blokadadan intibaha doğru aparan geniş bir yolun möhkəm zəminini formalaşdırmışdır.*

Qazanılan uğurların təməlində dayanan əsas faktorlardan biri qəbul olunan dövlət proqramlarının uğurla həyata keçirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu il martın 29-da “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında imzaladığı Fərman bu baxımdan qarşıya qoyulmuş yeni vəzifələrin həyata keçirilməsi üçün növbəti bir addımdır. Fərman muxtar respublikanın, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının daha da yüksəldilməsi məqsədilə imzalanıb.

Regional inkişaf proqramlarının qəbulu və onların icrası muxtar respublikamız, bütövlükdə, ölkəmiz üçün obyektiv zərurətdən irəli gəlir. Məlumdur ki, Azərbaycan neft-qaz ölkəsi kimi mühüm irimiqyaslı beynəlxalq layihələrin iştirakçısı və etibarlı partnyor kimi dünyada böyük müsbət imic qazanıb. Bununla yanaşı, Azərbaycanın neft hasilatının yalnız ölkənin paytaxtı və ətrafında cəmləşməsi istər istehsal, istər maliyyə, istərsə də insan resurslarının istifadəsində tarazsızlıq yaradır ki, bu problemin də həllində dövlət tənzimlənməsi mühüm amil kimi özünü sübut edir. İqtisadiyyatın hərtərəfli inkişafı üçün islahatların aparılması, Azərbaycanın sahib olduğu yeraltı sərvətlərin yerüstü kapitala – elmtutumlu sənaye, mütərəqqi təhsil, etibarlı səhiyyə, məhsuldar kənd təsərrüfatı, komfortlu turizm, yüksəksürətli rabitə və nəqliyyat infrastrukturu kimi sahələrə çevrilməsi üçün məhz uzunmüddətli dövrə hesablanmış proqram məzmunlu qərarların qəbulu tələb olunurdu. Təcrübə göstərdi ki, ölkəmizdə və eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında qəbul olunaraq icrası uğurla yekunlaşdırılan belə proqramlar məhz bu vəzifələrin həllində əsas determinant olaraq öz əhəmiyyətini bir daha göstərdi və əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin həyata keçirilməsinə, müasir tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına səbəb oldu.



Naxçıvan Muxtar Respublikasında son on beş ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası nəticəsində iqtisadi inkişafın əsas göstəricisi sayılan ümumi daxili məhsulun həcmi birinci proqramın qəbul edildiyi 2004-cü illə müqayisədə 12 dəfə artaraq 2 milyard 773 milyon 20 min manatdan çox olub. Regionun sosial-iqtisadi inkişafına dair sayca üçüncü olan və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası muxtar respublikanın sosial-iqtisadi inkişafında, əhalinin rifahının daha da yaxşılaşmasında mühüm mərhələ olub.

Bu proqram çərçivəsində görülən işlər, ilk növbədə, iri infrastruktur layihələrinin reallaşdırılması iqtisadiyyatın özəl sektorunun sürətli inkişafı üçün fəaliyyət meydanının tam formalaşması ilə nəticələnib. Yeni iqtisadi və idarəetmə modellərinin tətbiqi, sahələr arasında inteqral əlaqələrin yaradılması, burada iqtisadi mənafelərin qorunması, bank, maliyyə, sığorta kimi vacib sahələrdə dayanıqlılığın təmin olunması kimi mühüm məsələlər həll olunub. Nəticədə, 2004-cü illə müqayisədə muxtar respublikanın ümumi daxili məhsulunun həcmi 12, sənaye məhsulları istehsalı 38,7, kənd təsərrüfatı məhsulları istehsalı 6,1, əsas kapitala investisiya qoyuluşu 12,7, xarici ticarət dövriyyəsi isə 12,4 dəfə artıb. Son illər ərzində yeni yaradılan müəssisələrdə 73 mindən çox iş yeri açılıb, təkcə ötən beş il ərzində isə muxtar respublikada 85 elm və təhsil, 60 səhiyyə, 13 gənclər və idman, 137 mədəniyyət müəssisəsi, 17 sosial qayğıya ehtiyacı olan ailələr üçün ev, 52 kənd və 54 xidmət mərkəzi tikilərək istifadəyə verilib. Bu dövrdə 3 yeni elektrik stansiyası fəaliyyətə başlayıb. Naxçıvan indi elektrik enerjisi ilə nəinki özünü təmin edir, hətta bu sahədə ixracatçı kimi də tanınır.

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın diversifikasiyası, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, məşğulluğun artırılması və həyat səviyyəsinin yüksəldilməsi sahəsində mühüm nəticələr əldə olunub. Təkcə iqtisadiyyatın əsas aparıcı qüvvəsi hesab edilən sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üzrə görülən işlərə nəzər salsaq, Naxçıvanda müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edildiyini və 2014-2018-ci illərdə muxtar respublikada sahibkarlara 113 milyon 762 min 900 manat kredit verildiyini görərik. Həyata keçirilən yeni layihələr və yaradılan istehsal sahələri hesabına bu dövrdə muxtar respublikada 15 minə yaxın yeni iş yeri açılıb ki, bu da regional inkişafın ən əsas müsbət göstəricilərindəndir. Bundan əlavə, istehsal imkanları artan naxçıvanlı sahibkarların biznes əlaqələrinin genişləndirilməsi məqsədilə 2014-2018-ci illər ərzində ölkə daxilində və xaricdə keçirilən 131 biznes-forum, sərgi və konfransda 742 sahibkarlıq subyektinin iştirakı təmin edilib. Real sektorun inkişafına yönəlmiş və hər bir investor, iş adamı üçün kifayət qədər vergi və digər güzəştləri əhatə edən investisiyaların təşviqi mexanizminə uyğun olaraq indiyədək 5 layihə həyata keçirilib. Bu layihələrin reallaşdırılmasına 11 milyon 376 min manat sərmayə qoyulması əlavə yeni iş yerlərinin açılmasına zəmin yaradıb.

Sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili öz bəhrəsini verməkdədir. Belə ki, dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına son beş ildə yeyinti, yüngül, mebel, metallurgiya, kimya, tikinti olmaqla, 84 sənaye təyinatlı müəssisənin istifadəyə verilməsi məşğulluq səviyyəsinin yüksəlməsinə öz təsirini göstərmişdir.

Dövlətin özəl sektora, habelə onun aparıcı sahəsi olan sənayeyə göstərdiyi diqqətin nəticəsində təkcə 2018-ci ildə istehsal olunan sənaye məhsulunda özəl sektorun payı 94,7 faiz təşkil edib.

Muxtar respublikada kənd təsərrüfatı sahəsində məhsul istehsalının stimullaşdırılması, torpaqlardan daha səmərəli istifadəyə şərait yaratmaq üçün aqrar bölmədə emal və bazar infrastrukturunun yaradılması da əvvəlki dövlət proqramının icrası dövründə diqqətdə saxlanılıb. Ərzaq məhsullarının satışı zamanı mövsümi problemlərin həlli və əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatı məqsədilə ümumi tutumu 2230 ton olan 8 müxtəlif tutumlu soyuducu anbar, 17 istixana, 43 heyvandarlıq təsərrüfatı yaradılıb, 10 heyvandarlıq və 1 istixana təsərrüfatı genişləndirilib. Təkcə heyvandarlıq təsərrüfatlarının yaradılması üçün 45 milyon 104 min 200 manat həcmində kreditlər verilib.

Son illər ərzində rayon və kəndlərdə 750 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələrinin yaradılması yerli resurslardan səmərəli istifadəni və məşğulluq səviyyəsinin yüksəldilməsini təmin edib.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının müasir texnika ilə təmin olunması üçün 2014-2018-ci illərdə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1130 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınıb gətirilərək məhsul istehsalçılarına verilib. Yaradılmış şərait nəticəsində muxtar respublikada son 15 ildə taxıl istehsalı 1,2, süd istehsalı 1,3, ət istehsalı 1,9, kartof istehsalı 2,9, tərəvəz istehsalı 1,6, meyvə istehsalı 3,4, üzüm istehsalı isə 2,3 dəfə artıb.

Muxtar respublikanın sosial-iqtisadi həyatında mühüm rol oynamış bu dövlət proqramlarının uğurlu icrası ilə sənaye və kənd təsərrüfatı sahələri ilə yanaşı, regionun bütün yaşayış məntəqələrini əhatə edən yeni təhsil, səhiyyə, mədəniyyət, idman və turizm obyektlərinin, kənd və xidmət mərkəzlərinin tikintisi, habelə meliorasiya, energetika, yaşıllaşdırma, rabitə, nəqliyyat, yol-tikinti, içməli su təchizatı və kanalizasiya sistemləri sahələri üzrə həyata keçirilmiş yüzlərlə layihəyə də yekun vurulub.

*Bütün bu sadalananlar, eləcə də qazanılmış geniş təcrübə, maliyyə, istehsal resursları, əmək ehtiyatları muxtar respublikanın real sektorunun inkişaf potensialının əyani göstəricisidir. Bütün bunlar qarşıdakı dövrdə muxtar respublikanın əldə etdiyi nailiyyətlərin daha da artırılmasına zəmanət verir. Bu mənada, ötən dövrdə regional inkişaf sahəsində qazanılmış təcrübə növbəti, dördüncü dövlət proqramının icrası üçün də əlverişli zəmin yaradır.*

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

# Məktəbli şahmatçılar üçün seans





Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının iştirakçıları Naxçıvan Muxtar Respublika Stadionunda 96 naxçıvanlı məktəbli və azyaşlı şahmatçı üçün seans keçiblər. Əvvəlcə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov çıxış edərək festivalın təşkilatçılığının yüksək səviyyədə olduğunu vurğulayıb.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov şahmatçılara yarışda uğurlar arzulayıb.

Sonra seansa start verilib. Görüşdə Eltac Səfərli, Qədir Hüseynov, Fərid Abbasov, Zeynəb Məmmədyarova, Türkan Məmmədyarova, Xanım Balacayeva, Gülnar Məmmədli, Günay Məmmədzadə, Belarus şahmatçıları Aleksey Aleksandrov, Vladislav Kovalyev, Yunanıstan təmsilçisi Kotronias Vasilios və İran İslam Respublikasının zəka sahibi Purramezanali Əmirreza iştirak ediblər.

Görüşlərin hamısında qrossmeysterlər qələbə qazanıblar.

# Naxçıvanda daha bir mötəbər beynəlxalq turnir keçirilib




*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş karate-do üzrə “Heydər Əliyev kuboku” uğrunda keçirilən “Naxçıvan Open” beynəlxalq turnirinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi yarışda 350-dən çox idmançı mübarizə aparıb.





Beynəlxalq turnir iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad ediblər. Sonra qonaqlar Heydər Əliyev Muzeyinə gələrək ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov qonaqları salamlayaraq bildirib ki, ölkəmizdə idman siyasəti ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən inamla davam etdirilməsinin məntiqi nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb və mötəbər idman yarışlarının keçirildiyi məkana çevrilib. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə göstərilən sonsuz ehtiramın və sədaqətin bariz nümunəsi olaraq hər il dahi rəhbərin doğum gününə həsr olunmuş mötəbər yarışların keçirilməsi Naxçıvan Muxtar Respublikasında artıq ənənəvi hal alıb.

Federasiya sədri vurğulayıb ki, ümummilli liderin 96-cı ildönümünə həsr olunmuş və reytinqinə görə ən titullu idman turnirlərindən sayılan Beynəlxalq Şahmat Festivalının təntənəli açılış mərasiminin keçirilməsi, boks yarışlarına start verilməsi, təşkil edilən karate üzrə beynəlxalq turnir, eləcə də may ayı ərzində digər idman növləri üzrə yarışların keçirilməsi doğma diyarımızda idmanın inkişafına qayğının ifadəsidir.

Fazil Ələkbərov qeyd edib ki, muxtar respublikada gənclər siyasətinin yüksək dövlət qayğısı ilə həyata keçirilməsi nəticəsində şəhər və rayonlarımızda müasir standartlara cavab verən, hər cür şəraiti olan idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların istifadəsinə verilib.

Muxtar respublikamızda, demək olar, bütün idman növləri üzrə federasiyaların fəaliyyət göstərdiyini diqqətə çatdıran Karate-do Federasiyasının sədri federasiyanın yüksək dövlət qayğısı ilə əhatə olunduğunu bildirib. Diqqətə çatdırıb ki, hazırda muxtar respublikada karate idman növü üzrə 21 bölmədə 600-dən çox idmançı məşq keçir. Onlardan, təxminən, 150-si qız idmançıdır. Bu gün yekunlaşan növbəti karate turnirində 10 ölkədən 250-dək idmançının Naxçıvan şəhərində tatami üzərinə çıxması idmana göstərilən dövlət qayğısının və yaradılan şəraitin nəticəsində mümkün olub.

Federasiya sədri keçirilən turnirdə bütün idmançılara yüksək əzmkarlıq və uğurlar arzulayıb.

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov tədbirdə çıxış edərək dövlətimizin başçısı cənab İlham Əliyevin ölkəmizdə bədən tərbiyəsinə və idmana göstərdiyi diqqət və qayğıdan, habelə idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurlardan söhbət açıb. Nazir müavini qeyd edib ki, bu gün respublikamız dünyada artıq bir idman ölkəsi kimi tanınır.

Muxtar respublikada da idmanın sürətlə inkişaf etdirildiyini vurğulayan nazir müavini belə möhtəşəm bir tədbirin keçirilməsində göstərdiyi köməyə görə Ali Məclisin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxışında qeyd edib ki, muxtar respublikamızda idmanın inkişafı sahəsində mühüm işlər görülür. Yaradılan şəraitdən bəhrələnən muxtar respublika idmançıları mötəbər yarışlarda müntəzəm olaraq iştirak edir və Azərbaycanın idman şərəfini layiqincə qoruyurlar.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov çıxışında ulu öndər Heydər Əliyevin idman siyasətindən və bu gün ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, idmanın inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirildiyini vurğulayıb.

Yaşar Başirov Naxçıvan Muxtar Respublikasında digər idman sahələri ilə yanaşı, karate idman növünün də sürətlə inkişaf etməsini yüksək dəyərləndirib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə təltif olunduğu, Azərbaycan Milli Karate Federasiyasının 25 illik yubileyi münasibətilə hazırlanmış medal və Fəxri Diplom Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirinə təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov da medal və Fəxri Diplomla təltif olunublar.



Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov, federasiyanın fiziki hazırlıq üzrə məşqçisi Oqtay Məmmədov və “Arpaçay” Karate Klubunun rəhbəri Yavər Hüseynov isə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası tərəfindən mükafatlandırılıblar.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı tərəfindən bir-birindən rəngarəng musiqilər ifa edilib. İdmançıların nümunəvi çıxışları isə iştirakçıların böyük marağına səbəb olub və alqışlarla qarşılanıb.

Sonra yarışın final görüşlərinə start verilib.

Turnirdə Naxçıvan Muxtar Respublikasının idmançıları ilə yanaşı, Türkiyə, Rusiya, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Əfqanıstan, Kuba və Azərbaycanın 350-dən çox 6-13, 14-15, 16-17 və 18-20 yaşlı karate ustası tatami üzərinə çıxıb.

Yekun nəticəyə əsasən “Naxçıvan” komandası beynəlxalq turnirin qalibi olub. Türkiyə milli komandası ikinci, Bakının “Arpaçay” komandası isə üçüncü olub.

Qaliblər diplom, medal və kubokla mükafatlandırılıblar.

Mükafatları Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, muxtar respublikanın Gənclər və İdman naziri Azad Cabbarov, Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov təqdim ediblər.

Qalib gələn “Naxçıvan” komandasına isə kuboku Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Seymur Talıbov təqdim edib.

**✍ Ceyhun MƏMMƏDOV**

# Pedaqoji mühazirələrə həsr edilən konfrans-müsabiqə

*Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşlarının iştirakı ilə pedaqoji mühazirələrə həsr olunmuş konfrans-müsabiqə keçirilib.*

Konfransı giriş sözü ilə Təhsil naziri Rəhman Məmmədov açaraq qeyd edib ki, bu gün muxtar respublikada təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir, bu sahədə keyfiyyət göstəriciləri yaxşılaşdırılır, muxtar respublika təhsili özünün uğurlu inkişaf dövrünü yaşayır.

Bildirilib ki, pedaqoji mühazirələrin yazılmasında ümumi təhsil sistemində çalışan müəllimlər, məktəb rəhbərləri, metodistlər, psixoloqlar, kitabxanaçılar və uşaq birliyi rəhbərləri iştirak ediblər. Pedaqoji mühazirələr 2 mərhələdə – rayon (şəhər) və muxtar respublika mərhələləri üzrə təşkil olunub. Ümumilikdə, ümumtəhsil məktəblərinin hazırladıqları 257 pedaqoji mühazirə dinlənilib. Mövzunun aktuallığı, təcrübi əhəmiyyəti, orijinallığı baxımından uyğun gələn və innovativ xarakterə, səmərəli təcrübəyə əsaslanan 29 pedaqoji mühazirə müəllifi muxtar respublika üzrə seçimlərdə iştirak etmək hüququ qazanıb. Nazir bölmələr üzrə pedaqoji mühazirələrin müzakirələrinin aparılacağını, bunun da müəllimlərin bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayacağını bildirib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Elbrus İsayev çıxışında vurğulayıb ki, bu gün muxtar respublikada pedaqoji sahədə əsaslı dönüş yaradılıb, diqqətəlayiq işlər görülüb. Son günlərdə pedaqoji təcrübələrlə bağlı elmi konfranslar keçirilir, müəllimlər üçün təcrübə kursları təşkil olunur. Naxçıvan Müəllimlər İnstitutu da pedaqoji kadr hazırlığını təkmilləşdirməyi bundan sonra da diqqətdə saxlayacaq.

Sonra Ordubad Rayon Təhsil Şöbəsinin müdiri Samir Zeynalovun “Pedaqoji mühazirələrin tədrisin keyfiyyətinə müsbət təsiri”, Naxçıvan Qarnizonu tam orta məktəbinin riyaziyyat müəllimi Aytən Bağırovanın “Şagirdlərin riyazi bacarıqlarının inkişaf etdirilməsinin yolları”, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini İlahə Fərəcovanın “Təlim-tərbiyə prosesində şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsi” mövzularında çıxışları dinlənilib.

Konfrans öz işini plenar iclasla davam etdirib.

Qeyd edək ki, pedaqoji mühazirələrin keçirilməsi qaydalarına uyğun olaraq Təhsil Nazirliyinin və Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşları, bölmə rəhbərləri və üzvləri tərəfindən pedaqoji mühazirələrə dair verilən rəylər əsasında muxtar respublika mərhələsinin qalibləri müəyyənləşdiriləcəkdir. Qaliblər Təhsil Nazirliyi tərəfindən mükafatlandırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan xarici mediada*

# Mərkəzi Asiyaya açılan qapı – *Naxçıvan*



Naxçıvan Türkiyə ilə sərhəddə yerləşən muxtar respublikadır. Mən Naxçıvana ilk dəfə 1998-ci ildə getmişdim. Həmin dövrlərdə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin prospekt və küçələri indiki kimi deyildi. Elektrik enerjisi də yox idi. Şəhər daha çox kəndi xatırladırdı. İndi isə Naxçıvan şəhəri keçmişlə müqayisə edilə bilməz. Bugünkü Naxçıvana getdiyiniz zaman gömrük-keçid məntəqəsindən başlayaraq bir Avropa şəhərinə doğru yol aldığınızı hiss edirsiniz.

***Naxçıvana yolçuluq***

Gömrük işçilərinin mədəni, yardımsevər münasibəti, gülərüz olmaları insanda əminlik



yaradır. Buradan Naxçıvana yolçuluq başlayır. Muxtar respublikanın kəndlərindən keçərkən yolların təmizliyi, səliqə-sahman diqqəti cəlb edir. Yol kənarlarında kiçik bir tullantıya belə, rast gəlmək mümkün deyil. Yaşıllıqlar arasındakı yolçuluğumuz bizi muxtar respublikanın paytaxtına çatdırır. Bir şəhər bu qədərmi təmiz olar? Ətrafında kəndlərin yerləşməsinə baxmayaraq, şəhərdə hər tərəfin təmiz olması həm də buradakı insanların nə qədər mədəni və təmizkar olduqlarını göstərir.

Naxçıvandakı geniş prospektlər, piyada yolları, müasir binalar insana bir Avropa şəhərini xatırladır. Təmiz küçələri, maşınların intizamlı hərəkəti diqqətimizi çəkdi. Onu da deyim ki, Naxçıvanda piyadalar keçidə addım atdıqları zaman maşınlar o dəqiqə dayanır və piyadaya yol verilir. İnsanların səmimiyyəti sizi öz ölkənizdəki kimi hiss etməyinizi



təmin edir və ilk başdan təhlükəsiz şəkildə səyahət edəcəyinizə əmin olursunuz. Ucqar kəndlərə belə, təbii qazın çəkilməsi muxtar respublikada insan amilinə verilən dəyər kimi diqqətimi daha çox çəkdi. Hər bir yaşayış məntəqəsinin təbii qazla təmin edilməsi üçün səylə çalışan zəhmətkeş insanları təbrik etmək lazımdır. Çünki bu həm də ha-



vanın təmiz olması deməkdir.

Naxçıvanı gəzərkən buranın çox böyük bir mədəniyyətə ev sahibliyi etdiyinin şahidi olursan. Muzeylərdə nümayiş etdirilən və keçmiş dövrlərdən qalan əmək alətləri insanı xəyalən miladdan öncəki dövrlərə aparır. O dövrə aid eksponatlar hələ də qorunub saxlanılır.

Açıq Səma Altındakı Muzeydəki qoç heykəllər, Möminə xatın türbəsi və Əshabi-Kəhf ziyarətgahı insanı ovsunlayır. Naxçıvan şəhəri sanki tarixi yaşadır. Belə söyləyirlər ki, ilk dəfə keçən il çıxdığım Haçadağın zirvəsi Nuhun gəmisinin çarpması nəticəsində iki hissəyə parçalanıb. Ötən il Xocalı faciəsini anmaq üçün fevralın 26-da, bu il isə fevralın 24-də idmançı dostlarımla buranı ziyarət etmişdik. Haçadağın zirvəsindən Ağrıdağını izləmək insana ayrı bir həyəcan bəxş edir. Burada vəhşi heyvanlardan dağ keçilərinə, vaşaqa, canavara və tülküyə rast gəlmək olar.

Naxçıvanın buz kimi təbii mineral suları,



duz mağarası, gözəl gölləri və dövrünün böyük hökmdarı Teymurun işğal edə bilmədiyi Əlincəqala başlıca gəzməli-görməli yerlərindəndir. Muxtar respublikanın Ordubad rayonunda fərqli növdə limon yetişdirilir. Ümumiyyətlə, bu diyar bitki müxtəlifliyi ilə çox zəngindir. Yerli mətbəx nümunələrindən külə və kartof kababları ən çox bəyəndiklərimdəndir.

Son illər Naxçıvanın bu səviyyədə inkişafı, eyni zamanda təhsilin səviyyəsinin də yüksək





olması gözümdən qaçmadı. Əhalinin əksəriyyətinin universitet məzunu olması təhsilə nə qədər böyük əhəmiyyət verildiyini göstərir. "Yaradıcı gənclər festivalı"nda uşaqların hazırladıqları heykəlləri, əl işlərini, maketləri, çəkdikləri rəsmləri təqdim etmələri, musiqi nömrələri və folklor nümunələri ilə çıxışları daha kiçik yaşlarından onların istedadlarının üzə çıxarılması üçün görülən nümunəvi işdir.



Festival çox gözəl təşkil olunmuşdu.

Bir sözlə, tətilinizi mənalı keçirmək, gözəl istirahət etmək və gəzmək istəyirsinizsə, mütləq bu şirin diyara – Naxçıvana getmək lazımdır.

**Muhammed AKKUŞ**
***"Serhad Birikim" qəzetinin əməkdaşı***
***Siyasalbirikim.org***
***4 may 2019-cu il***

# *"Ümummilli lider Heydər Əliyev və dövlət uşaq siyasəti"* mövzusunda tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Ümummilli lider Heydər Əliyev və dövlət uşaq siyasəti" mövzusunda tədbir keçirilib.***



Tədbirdə "Heydər Əliyev və dövlət uşaq siyasəti" mövzusunda komitənin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin hələ ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyi dövründə uşaqlara xüsusi diqqət yetirməsi, səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu 1993-2003-cü illərdə uşaq siyasətinin daha güclü təməllər üzərində qurulması və həyata keçirilməsi üçün fəaliyyətinin mühüm istiqamətlərini bu məsələyə yönəltmişdir. Həmin dövrdə ölkəmizdə dövlət uşaq siyasətinin hüquqi əsasları formalaşdırılmış, zəngin qanunvericilik bazası yaradılmışdır.

Əsası ulu öndər tərəfindən qoyulmuş bu siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və artıq milli strategiya kimi formalaşmışdır.

Ramilə Seyidova deyib ki, bu gün muxtar respublikada da uşaqların sağlamlığının qorunmasına, təhsilinə, təlim-tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. Onların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ana və uşaqlara tibbi xidmətin keyfiyyəti və əhatəliliyi artırılmış və nəticədə, ana və uşaq ölümü minimuma endirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, uşaqların elektron məlumat bankı yaradılmışdır.

Vurğulanıb ki, uşaqların təhsili, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də mühüm tədbirlər həyata keçirilir. Muxtar respublikadakı mədəniyyət ocaqları və məktəbdənkənar tərbiyə müəssisələrində fəaliyyət göstərən dərnəklər uşaqların asudə vaxtının səmərəli təşkilində mühüm əhəmiyyətə malikdir.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva çıxış edərək bildiriblər ki, ulu öndərin müəyyənləşdirdiyi məqsədyönlü siyasətin uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, milli düşüncəyə malik gələcək nəsil formalaşır.

Diqqətə çatdırılıb ki, muxtar respublikada uşaqların hüquqlarının qorunması, təhsili, sağlamlığı, sosial müdafiəsi, istirahəti, yaradıcılıq potensialının aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər müntəzəm xarakter alıb. Çünki uşaqların milli dəyərlər, adət-ənənələr əsasında düzgün tərbiyə olunması, sağlam əxlaqi mühitdə yetişməsi vacib məsələdir.

Sonda tədbir iştirakçıları muzeyin eksponatlarına baxıblar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ukrayna televiziyasında Naxçıvanla bağlı veriliş yayımlanıb



*Ukraynanın "Kanal-5" televiziyası Azərbaycanla bağlı hazırladığı verilişin çəkilişlərinin bir hissəsini Naxçıvan Muxtar Respublikasında aparıb.*

Artıq "Kanal-5" televiziyası Naxçıvanla bağlı çəkilmiş verilişi efirdə yayımlayıb. Ukrayna dilində yayımlanan verilişdə Naxçıvan şəhərinin tarixi, onun Nuh Peyğəmbərin vətəni olması haqqında ukraynalı tamaşaçılara maraqlı məlumatlar verilir. Naxçıvan şəhərinin təmizliyinə və səliqəsinə heyran olan aparıcı taksi xidmətlərinin yüksək səviyyədə olduğunu və qonaqpərvərliyi xüsusi qeyd edir. Verilişin aparıcısı Nadya Baziv Naxçıvanın ümummilli lider Heydər Əliyevin doğulduğu şəhər olduğunu vurğulayır, 1990-1993-cü illərdə ulu öndərin burada siyasi fəaliyyəti ilə bağlı məqamlara da toxunur.

Heydər Əliyev Muzeyində saxlanılan ümummilli liderimizə məxsus əşyalar və digər eksponatlar haqqında məlumat verilib.

Görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın adını daşıyan Şahtaxtı kənd tam orta məktəbi ilə Ukraynanın İrpen şəhərinin məktəbi arasında dostluq əlaqələri, akademikin bu kənddə doğulduğu tamaşaçıların diqqətinə çatdırılır. Aparıcı verilişdə ukraynalı xanımlara Naxçıvan kətəsinin necə hazırlanmasını da təqdim etməyi unutmayıb.

***"Nuhçıxan" İnformasiya Agentliyi***

# Naxçıvan şəhəri bakılı məktəblilərdə zəngin təəssürat yaradıb

Mayın 4-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Bakı şəhər 20 saylı tam orta məktəb-liseyin bir qrup müəllim və şagird heyəti ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə əlaqədar muxtar respublikaya gəliblər. Qonaqlar səfər çərçivəsində Heydər Əliyev Muzeyi, Dövlət Bayrağı Meydanı və Muzeyi, Duzdağ Fizioterapiya Mərkəzi, Möminə xatın türbəsi, Naxçıvan Dövlət Universiteti, Biznes Mərkəzi və Naxçıvan Döyüş Şöhrəti Muzeyi ilə tanış olublar.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov və Gənclər və İdman naziri Azad Cabbarov Naxçıvan şəhərindəki "Nəqşicahan Holdinq Şirkətlər Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Görüş yeri" kafesində diyarımıza qonaq gələn müəllim və tələbələrlə görüşüblər.



Bakı şəhər 20 saylı tam orta məktəb-liseyin direktoru, Əməkdar müəllim Səadət Veysova rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyəti barədə məlumat verib, ekskursiyanın təşkili üçün yaradılan şəraitə və göstərilən diqqətə görə dövlətimizə minnətdarlıq edib. Müəllim və şagirdlərə Naxçıvan məhsullarından ibarət hədiyyələr verilib.

Bakılı məktəblilər Naxçıvandan xoş təəssüratlarla ayrılıblar.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda güclü karateçilər yetişdiyinin şahidi olduq

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən "Heydər Əliyev kuboku" uğrunda "Naxçıvan Open" beynəlxalq turnirində müxtəlif ölkələrin tanınmış idmançıları təmsil olunurdular. Onların təəssüratlarını öyrəndik:*

***Pedro Luis – Kuba:*** – Özüm 20 ildir ki, Ukraynada yaşayıram, lakin beynəlxalq turnirdə Kubanı təmsil edirəm. Turnir öz gərginliyi və mübarizliyi ilə seçildi. İlk dəfədir, bu turnirdə iştirak edirəm. Lakin ötən illərdə Naxçıvanda təşkil olunan beynəlxalq turnirlər barədə məlumatım var idi. Təklifi məmnuniyyətlə qəbul etdik və diyarınıza gəldik. Çox ecazkar şəhəriniz var. Qonaqpərvərliyiniz və göstərdiyiniz səmimi münasibət insanlar arasında fərq qoyulmadığının göstəricisidir. Bu da insan amili üçün vacib məsələdir. Çox şadam ki, belə bir diyarda oldum. Naxçıvan hər zaman mənim xatirimdə qalacaq bir şəhər təəssüratı yaratdı. Qalib gələn komandalara, idmançılara gələcək karyeralarında uğurlar arzulayıram.



***İbrahim Yazıcı – Türkiyə milli komandasının məşqçisi:*** – Naxçıvanda keçirilən turnirə Türkiyə milli komandasının 7 idmançısı ilə gəlmişik. Məqsəd idmançılarımızın yarış təcrübəsini artırmaq, naxçıvanlı qardaşlarımızla münasibətləri genişləndirmək və idmançılar arasında yaxşı münasibət qurmaqdır. Təşkilatçılıq çox möhtəşəmdir. Bizi o qədər gözəl qarşıladılar ki, özümüzü evimizdəki kimi hiss etdik. Hər şey üçün təşkilatçılara minnətdarlıq edirəm. Qarşıdakı illərdə də buraya gələcəyik.



***Qulam Həbib Əhmədi – Əfqanıstan millisinin məşqçisi:*** – Sərhəddən Naxçıvana keçərkən bizə qarşı o qədər qonaqpərvərlik göstərildi ki, idmançılara dedim: "Biz gərək digər turnirlərdə də burada olardıq". Turnir çox yaxşı və yüksək səviyyədə təşkil edilib. Eyni zamanda digər ölkələr güclü heyətlə mübarizə aparırlar. Naxçıvan karateçiləri isə öz gücləri ilə seçilirlər. Havası təmiz, abad şəhəriniz var, özümü burada çox rahat hiss edirəm. Millətiniz isə istiqanlı və qonaqpərvərdir.



***Bəhram Mirzə Həsənpur – İran komandasının rəhbəri:*** – Artıq üçüncü dəfədir, Naxçıvana gəlirəm. Hər dəfə qədim diyarda böyük inkişafın şahidi oluruq. Bu inkişafı idman sahəsində görmək mümkündür. Onu da deyim ki, ilk dəfə turnirdə 5-6 nəfərlə iştirak etdik. İndi isə 50 nəfərlik heyətlə gəlmişik. Turnirin səviyyəsinə gəlincə, çox əla təşkil olunub. 10 ölkənin bir turnirdə iştirak etməsi böyük uğurdur. Hər şey mükəmməl idi. Buna görə də çalışacağıq ki, qaşıdakı illərdə də Naxçıvanda keçiriləcək yarışlarda iştirak edək.



**✍ Ceyhun MƏMMƏDOV**

## 5 turdan sonra liderlər mövqeyini qoruyur



*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Naxçıvan-2019" Beynəlxalq Şahmat Festivalında ilk 5 tur geridə qalıb.*

Bu turda azərbaycanlı qrossmeyster Eltac Səfərli (2624) ilə belçikalı qrossmeyster Vadim Malaxatko (2508) üz-üzə gəlib və görüş "sülh"lə başa çatıb. ABŞ-lı qrossmeyster Timur Qarayev (2560) ilə azərbaycanlı qrossmeyster Nicat Abasovun (2633) da görüşü heç-heçə başa çatıb. Azərbaycanlı beynəlxalq usta Misrətdin İsgəndərov (2495) azərbaycanlı qrossmeyster Fərid Abbasovla (2534), ukraynalı qrossmeyster Eldar Qasanov (2506) yunanıstanlı qrossmeyster Vasilios Kotroniasla (2474) xalları yarı bölüb.

Belaruslu qrossmeyster Vladislav Kovalyev (2678) azərbaycanlı beynəlxalq usta Gülnar Məmmədovanı (2349) məğlub edə bilməyib və heç-heçəyə razılaşıb. Özbəkistanlı beynəlxalq usta Ortik Niqmatov (2469) isə iranlı qrossmeyster Əmirreza Purramezanalidən (2496) üstün olub.

5-ci turda naxçıvanlı zəka sahiblərindən qrossmeyster Urfan Sevdimalıyev (2352) azərbaycanlı FİDE ustası Rəşad Zeynallıdan (2290) güclü olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2323) isə azərbaycanlı qrossmeyster Zeynəb Məmmədyarovaya (2280) uduzub. Digər beynəlxalq usta Talıb Babayev (2329) azərbaycanlı şahmatçı Nərmin Söyünlünü (2064) üstələyə bilməyib. Bu turda FİDE ustalarımızdan Sadiq Məmmədov (2205) türkiyəli FİDE ustası Esat Bağlanı (2345) məğlub etdiyi halda, Pərviz Qasımov (2328) azərbaycanlı qrossmeyster Xəyalə Abdullaya (2228) məğlub olub.

İlk 5 turdan sonra Ortik Niqmatov, Eltac Səfərli, Timur Qarayev, Nicat Abbasov və Vadim Malaxatkonun aktivində 4 xal var.

"B" qrupunda keçirdiyi bütün görüşləri qələbə ilə başa vuran Amil Abbasovun (2215) liderliyi davam edir. Fariz Əhmədov (1775) və Elxan Bayramov (2158) isə rəqiblərindən yarı xal geri qalırlar.

Beynəlxalq Şahmat Festivalının "C" qrupunda naxçıvanlı zəka sahibi Uğur Həsənli (1329) vahid liderliyə yüksəlib. Son turda da qalib gələn şahmatçımız 5 görüşdən maksimum xal toplayıb.

## Futzal birinciliyi uğrunda şahmatçılar yarışıblar



***Şahmatçılar Beynəlxalq Şahmat Festivalında fasilələri səmərəli şəkildə keçirirlər. Belə ki, zəka sahibləri arasında Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində futzal birinciliyi təşkil olunub.***

Birincilikdə "Hakimlər", "Əcnəbilər", "Naxçıvan şahmatçıları" və "Naxçıvan" komandaları mübarizə aparıblar. Olimpiya sistemi üzrə keçirilən birinciliyin final qarşılaşmasında qonaqlardan ibarət komanda ilə "Naxçıvan" komandası üz-üzə gəlib. Görüş əcnəbilərin 4:3 hesablı qələbəsi ilə başa çatıb. Üçüncü yer uğrunda görüşdə isə ədalət təmsilçiləri naxçıvanlı zəka sahiblərinə məğlub olublar – 1:4.

Sonda qalib komanda plaket və kubokla, digər qaliblər isə plaketlə təltif olunublar. Mükafatları Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov təqdim edib.

## Blits-turnir

*Naxçıvan Şahmat Mərkəzində davam edən Beynəlxalq Şahmat Festivalının iştirakçıları arasında blits-turnir də keçirilib.*



Turnirdə 74 şahmatçı birincilik uğrunda mübarizə aparıb. Ümumi mükafat fondu iki min ABŞ dolları olan yarışın qalibi azərbaycanlı qrossmeyster Nicat Abasov (2633) olub. O keçirdiyi 9 görüşdən 7,5 xal toplayıb. Azərbaycanlı qrossmeyster Qədir Hüseynov, Vüqar Rəsulov və iranlı qrossmeyster Purramezanali Əmirreza 7 xal toplayıblar.

5-10-cu yerlərdə isə Nail Bəşirli, Kənan Qarayev, Tornike Sanikidze (Gürcüstan), Vladislav Kovalyev (Belarus), Misrətdin İsgəndərov və Timur Qarayev (ABŞ) qərarlaşıblar.

Qeyd edək ki, blits-turniri ilk on pillədə başa vuran şahmatçılara pul mükafatı təqdim olunub.

**✍ C.MƏMMƏDOV**

## "Naxçıvan marafonu – 2019" keçirilib

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən "Naxçıvan marafonu-2019" keçirilib.*

"Sağlamlıq üçün qaç!" şüarı altında muxtar respublikada ilk dəfə təşkil olunan marafon kütləviliyi ilə seçilib. Marafonda 14 yaşından yuxarı şəxslər, muxtar respublikanın bütün rayonlarından olan gənclər, o cümlədən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun könüllüləri, sosial könüllülər, nəqliyyat könüllüləri, tələbələr fəal iştirak ediblər.

Yarış Olimpiya İdman Kompleksinin qarşısı, Xətai məhəlləsi, daha sonra Şıxmahmud və Xəlilli kəndlərindən keçərək Nəbatat bağı boyunca Uzunoba gölü ətrafınadək marşrutu əhatə edib.

Yarışın fan zonası finiş nöqtəsində – Uzunoba gölü ətrafında təşkil olunub.



Marafonun təltifetmə mərasimi də burada baş tutub. Kişilər arasında könüllü Qəşəm Səfərov finiş xəttinə hamıdan tez çatıb. Mahir İbrahimov (hərbçi) ikinci, Əkbər Mehdiyev (Naxçıvan Dövlət Texniki Kolleci) üçüncü olublar.

Qadınlar arasında isə "Rabitəçi" klubunun üzvü Gülayə Cəfərova hamıdan sürətli qaça bildiyini sübut edib. Digər iki pillədə isə müvafiq olaraq Nazlıcan Çakır ("Rabitəçi") və İlkanə Babayeva (Naxçıvan Dövlət Texniki Kolleci) qərarlaşıblar.

Sonra "Naxçıvan marafonu – 2019"un qaliblərinin mükafatlandırma mərasimi olub. Qaliblər iki kateqoriya – kişi və qadınlar üzrə müəyyən edilib. Kateqoriyaların hər birində ilk yerin sahibləri 1000, ikinci yeri tutanlar 500, üçüncü yerə çıxanlar isə 300 manat məbləğində mükafatla təltif ediliblər.

Həmçinin kişi və qadın kateqoriyalarının hər biri üzrə dördüncü-onuncu yerləri tutan şəxslərə müxtəlif qiymətli hədiyyələr verilib.

Yarışın təşkilində dəstək göstərən könüllülərə tədbirdən sonra sertifikatlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin aprel ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2821 | 208,8 | 208,8 | 100,0 |
| 2. | Şərur rayonu | 2003 | 142,2 | 142,2 | 100,0 |
| 3. | Babək rayonu | 1527 | 108,4 | 108,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 1044 | 74,1 | 74,1 | 100,0 |
| 5. | Culfa rayonu | 930 | 66,1 | 66,1 | 100,0 |
| 6. | Kəngərli rayonu | 585 | 41,6 | 41,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 369 | 26,2 | 26,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 204 | 14,5 | 14,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19492 | 1754,3 | 1761,8 | 100,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **28975** | **2436,2** | **2443,7** | **100,3** |

**Qeyd:** Aprel ayında texniki itki nəzərə alınmaqla daxil olan 28 milyon 975 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 436 min 200 manat olmuş, cəmi 2 milyon 443 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,3 faizini təşkil edir.

## AMEA Naxçıvan Bölməsi

### *elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***

Ədəbiyyatşünaslıq şöbəsi
Böyük elmi işçi – 1 ştat vahidi
Folklorşünaslıq şöbəsi
Böyük elmi işçi – 1 ştat vahidi

***Bioresurslar İnstitutu***

Biokimyəvi tədqiqatlar laboratoriyası
Elmi işçi – 1 ştat vahidi

***Təbii Ehtiyatlar İnstitutu***

Sorbsiya prosesləri laboratoriyası
Böyük elmi işçi – 1 ştat vahidi
Fiziki tədqiqatlar laboratoriyası
Böyük elmi işçi – 1 ştat vahidi
Elmi işçi – 1 ştat vahidi
İqtisadiyyat şöbəsi
Böyük elmi işçi – 1 ştat vahidi
Coğrafiya şöbəsi
Elmi işçi – 1 ştat vahidi

***Batabat Astrofizika Rəsədxanası***

Səma cisimlərinin mövqe müşahidələri şöbəsi
Elmi işçi – 1 ştat vahidi
Səma cisimlərinin fotometriyası şöbəsi
Elmi işçi – 1 ştat vahidi

***Əlyazmalar Fondu***

Əlyazmaların toplanması şöbəsi
Elmi işçi – 1 ştat vahidi

Müsabiqədə yerlərə uyğun olaraq elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Az 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76. AMEA Naxçıvan Bölməsi Təhsil və kadrlar şöbəsi***
***Telefon: 544-65-97; 545-16-80***

### *İtmişdir*

Məmmədov Şam Yaşar oğlunun adına olan AA-005801 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü və MH-0023923 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 316